*MUSİQİ TÜRKOLOGİYASI*
*МУЗЫКАЛЬНАЯ ТЮРКОЛОГИЯ*
*MUSİQİ TÜRKOLOGİYASI*

**UOT 781.2**
**DOİ: https://doi.org/10.5281/zenodo.16415344**

# MUSİQİ TÜRKOLOGİYASI KONTEKSTİNDƏ MÜQAYİSƏLİ TƏHLİLİN METODOLOGİYASI HAQQINDA

**RƏNA MƏMMƏDOVA (SARABSKAYA)***

*AMEA-nın müxbir-üzvü, sənətşünaslıq doktoru,*
*professor, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun*
*"İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsinin müdiri*
*Ünvan:AZ 1141, Bakı, H. Cavid pr.114*
*E-mail:* renasarabskaya@mail.ru
https://orcid.org/0009-0007-7215-4331

***Sitat gətirmək üçün***: Rəna Məmmədova (Sarabskaya). Musiqi türkologiyası kontekstində müqayisəli təhlilin metodologiyası haqqında // – Bakı: Musiqi dünyası. Beynəlxalq Elmi Musiqi Jurnalı, – 2025.Vol.27/№2 (103), – s.32-43.

**Xülasə**
Oxucuya təqdim olunan məqalə musiqi türkologiyasının aktual məsələsi olan türkdilli xalqların musiqisi kontekstində formulluq məsələsinə həsr edilmişdir. Burada təkcə ladintonasiya tipologiyalarının deyil, həm də malogenezin funksional əhəmiyyətinin eyniyyətinin rolu qeyd edilir. Müqayisəli təhlilin metodologiyasının əsas məqsədi türk dünyası musiqisinin həm ümumi, həm də müxtəlif xüsusiyyətlərinin müəyyənləşdirilməsindən ibarətdir. Burada genetik səviyyədə prinsipial uyğun olan mədəniyyətlərin müqayisəli təhlili mühüm yer tutur. Ladintonasiya aspektinə maraq musiqi təfəkkürünün genoformul səviyyəsinin daha çox intonasiya təhlili vasitəsilə açılmasından irəli gəlir. Ü.Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" kitabında əks etdirdiyi elmi konsepsiya metodoloji vektor kimi xidmət göstərir. Məhz bu konsepsiya melodik formulların intonasiya uyğunluğunu fiksasiya etməyə imkan verir.Təhlilin əsası kimi kadans intonasiya- tipoloji modellər təklif edilir, bunların semantik əhəmiyyəti türkdilli xalqların musiqisində tipoloji oxşarlığı daha böyük məqsədəuyğunluqla arqumentasiya etməyə imkan verir. Müqayisəli təhlil nəticəsində, bir tərəfdən, türkdilli xalqların ümumi, qohum, tipoloji əhəmiyyətli xüsusiyyətlərini müəyyənləşdirmək, digər tərəfdən, müqayisə edilən mədəniyyətlərin spesifik, milli xarakter

* © Məmmədova (Sarabskaya)

CC BY 4.0 DEED
Attribution 4.0 International

xüsusiyyətlərini aşkar etmək mümkünləşir. Məqalədə etnoşüurun güclü tərkib hissələri olan türk amilinin, türk köklərinin tədqiqi etnomusiqişünaslığın bir çox fundamental məsələlərinə cavab tapmağa yönəlmiş digər araşdırmalar üçün də metodoloji əsas olması göstərilir.
**Açar sözlər**: türkologiya, formulluq, genoformula, lad, intonasiya, tip.

## Giriş

Bu gün musiqi elminə konsepsiyalı metodoloji xarakter daşıyan fundamental nəzəri tədqiqatlar lazımdır. Söhbət ondan gedir ki, bu gün Azərbaycan musiqi tarixi musiqi dilinin təkamülü və genezisi səviyyəsində öyrənilməlidir. Təkcə təsvir etmək, xarakterizə etmək, qeyd etmək deyil, həm də tarixi inkişaf prosesində milli spesifik parametrlərin dərin impulslarını aşkar etmək lazımdır. Bu baxımdan müraciət olunan mövzunun aktuallığı öz təsdiqini tapır.

Elmdə müqayisəli metodun biliyin mühüm halqası olduğu haqda təsəvvür çoxdan yaranmışdır. Lakin Azərbaycan sənətşünaslığında müqayisəli tədqiqatlar uzun müddət "populyar" olmamışdır. Müqayisəli təhlil məhz bu gün sivilizasiyalararası ünsiyyət dövründə, həqiqətən, aktuallaşmışdır.

Bizim problemin tədqiqində əsas məsələlərdən biri - türk xalqlarının mədəniyyətinin tarixində tipoloji proseslərə əsaslanan müqayisəli təhlil yolu ilə türk bədii dünyasının ümumiliyinin xüsusiyyətlərini göstərməkdir. Tədiqiqatın belə aspekti nə verir? Hər şeydən öncə, böyük zaman diapazonunda qarşılıqlı əlaqələrin baxılmasına imkan yaranır. Mədəniyyətlərin əlaqəsinin mərhələli olduğunu və daimi xarakter daşımadığını nəzərə alaraq, müqayisəli-tipoloji təhlilə istinad etmək bu və ya digər ümumiləşmələrin düzgünlüyündə daha etibarlı variant sayılır.

Musiqi türkologiyasının başlıca vəzifəsi - türkdilli xalqların mədəniyyətində genezis və musiqi təfəkkürünün təkamülünü müəyyənləşdirə bilən elmi layihənin yerinə yetirməkdən ibarətdir. Bizim iş - etnogenezin türk kökləri̇lə şərtlənən Azərbaycan xalq musiqisinin intonasiya genezisinin, türk xalqlarının tarixi yaddaşında "proqramlaşdırılmış" müəyyən ladintonasiya, melodik modellərin tədqiqini nəzərdə tutur.

Araşdırmanın nəticələri musiqi türkoloji tədqiqatların işlənməsində mühüm elmi-nəzəri mənbə kimi istifadə edilə bilər.

## Material və metodlar

Azərbaycan humanitar elmində Azərbaycan xalqının etnogenezinə həsr edilmiş kifayət qədər geniş ədəbiyyat mövcuddur. Lakin Azərbaycan etnomusiqişünaslığında Azərbaycan musiqi folklorunda etnogenezin rolu ilə əlaqədar tədqiqatlar hələ ki az

saydadır. Yalnız son on ildə alimlər Azərbaycan xalq musiqisində etnomədəni məzmunun aktual və maraqlı mövzusuna müraciət etmişlər.

Müqayisəli, o cümlədən, müqayisəli-tipoloji təhlil bir tərəfdən, milli spesifikanın, digər tərəfdən, mədəniyyətin universallıqlarının problemlərini həll etməyə imkan verir. Bununla yanaşı etnoloji metodların tətbiqi tarixi inkişafda dəyişiklikləri idarə edən qanunları aşkarlamağa kömək edir.

Götkəmli musiqişünas-alim İ.İ.Zemtsovski [5] tərəfindən müəyyən mövqeləri irəli sürülmüş etnomorfoloji təhlil mədəniyyətlərin müqayisəli təhlilini nəzərdə tutur, çünki yalnız müqayisə milli identifikasiyanın aktual mövzularını müəyyənləşdirə bilir.

Tədqiqatın əsasını konkret musiqi materialı təşkil edir. Bunlar müəyyən qədər ilkin folklor intonasiyalarının nümunələri kimi baxıla bilən musiqili mərasim folkloru, uşaq folkloru nümunələri, məişət mahnı-instrumental xalq musiqisi və şübhəsiz, muğamatdır.

Bizim problemin metodoloji müddəaları daha çox etnolojidir. Məlum olduğu kimi, etnoloji təhlil hər şeydən öncə, etnoloji və etnomədəni oriyentirlərə əsaslanır.Genoformula bizim irəli sürdüyümüz etnomorfoloji təhlilin əsasını təşkil edir.

Genoformulanı musiqişünaslardan B.Asafyev “adətkarlı” formulalar, “gəzərgi” havalar adlandırmış, İ.Zemtsovski “melodik tip”, V.Qoşovski “arxetip” anlayışlarını irəli sürmüşdür və s.

Genoformula anlayışı V.Qoşovskinin [4] məşhur “arxetip” formulirovkasına yaxın durur. Vaxtı ilə V.Qoşovski məqsədi qədim musiqi mədəniyyətinin mənbələrini öyrənməkdən ibarət olan musiqi slavyanşünaslığı - xüsusi elmi fənnin daxil edilməsini təklif etmişdir.

Əgər V.Qoşovski arxetipi “qədim slavyan xalq musiqisinin praforması” kimi başa düşürdüsə, bu tədqiqatda genoformula bu gün də aktual olan türk musiqi dilinin modeli kimi şərh edilir.

Bundan əlavə, Ü.Hacıbəylinin “Azərbaycan xalq musiqisinin əsasları” fundamental elmi əsərində əksini tapan musiqi-nəzəri konsepsiyası [2] tədqiqatın metodoloji bazası kimi istifadə edilmişdir.

## Müzakirə və qənaətlər

### Genoformula - türk xalqlarının musiqisinin müqayisəli təhlilinin baza modeli kimi

Musiqi türkologiyası qanunauyğun qaydanın analoqları əks olunan kateqoriyalara əsaslanır. Musiqi türkologiyasının bu “binasının” bünövrəsində genoformula ideyası durur,

belə ki, musiqi folklorunun mürəkkəb strukturunun tərkib hissələrindən biri onun genoformula kodudur.

Genoformulanın təkamülü - yaranması prosesində ortaya çıxan intonasiyalılıqdır, konsentrasiya və böyümə prosesində lad işidir. Başqa sözlə desək, genoformulanın inkişafı lad funksionallığın kristallaşması istiqamətində hərəkət edir. Bu vacibdir, belə ki, müqayisəli təhlilin göstərdiyi kimi, türkdilli xalqların musiqisindəki paralellər bu aspektdə identifikasiya edilir. Bu da mövzunun seçiminin aktuallığını şərtləndirir.

Genoformulada musiqi şüurunun dərhal bir neçə səviyyəsi - impulsun ilkinliyi, stabil modelin konsentrasiyalılığı və münasibəti əksini tapır. Başqa sözlə desək, yaradıcı başlanğıc möhkəm özəyə əsaslanır.

Genoformulada ilkin baza intonasiya, sonra isə lad funksional əlaqə yaranırdı; genoformula mərkəzləşmənin prioriteti ideyasını qeyd etdi, musiqinin ən spesifik etnomədəni xüsusiyyətlərini topladı.

Türkdilllli xalqların musiqi mədəniyyətində genoformulanın ən spesifik və konstant cəhətləri kimi aşağıdakıları hesab etmək olar:

1. səsyüksəkliyi sabitliyinin ölçüsü;

2.intonasiyanın uyğun tipi;

3.müəyyən areal çərçivəsində yayılma;

4.formulluq;

5.səsyüksəkliyi sisteminin elementlərinin qarşılıqlı asılılığı.

Genoformulada "meloyaradıcılığının məhsuldar qüvvələri" (İ.Zemtsovski) fiksasiya edilmişdir; bu, hər şeydən öncə, musiqi mədəniyyətinin həyat qabiliyyətli elementidir, ona görə də onun melogenezini müəyyənləşdirir. Belə ki, genoformulanı çoxlu, uyğun variantların invariant modeli hesab edərək, onun melodik əhəmiyyətini tipoloji kateqoriya kimi və onun tematik əhəmiyyətini funksional kateqoriya kimi təsdiq etmək olar.

Türk musiqi nitqinin mənbəyi, ilkin seqmenti kimi genoformulaya baxılması səviyyəsində biz qeyd edək ki, xalq musiqi mədəniyyətinin formula qatının öyrənilməsi bədii obrazın polisemantizmini açır, bu da etnik kollektivin bilavasitə həyat fəaliyyətilə bağlıdır.

Göstərilən aspektlərin sıx əlaqəsi haqqında E.Alekseyev yazırdı ki, səs sırası - lad funksional - intonasiya triadasında məhz sonuncuya üstünlük verilir. Onun fikrincə, "yalnız intonasiyalı kontekst prosesual mahiyyəti və bununla da mütəşəkkil səsyüksəkliyinin məzmunlu ilkin əsasını açır"[1, s.29]. Ladintonasiya sahəsində həll edilməmiş məsələlər haqda danışaraq

E.Alekseyev qeyd edirdi: "Onların təkrar qoyuluşu və həlli olmadan musiqişünaslıq fikrinin bütün digər sahələrdə gələcək irəliləyişi şübhə doğurur" [1, s.6].

Musiqidə onun "ilkin təkanı" kimi formulluğun öyrənilməsinin stimulunu türk xalqlarının çoxsaylı musiqisi əsasında türk musiqi mədəniyyətinin qohumluğunu müəyyənləşdirən spesifik formulların olması təşkil edir. Bizim fikrimizcə, məhz Azərbaycan musiqisinin və türkdilli xalqların musiqisinin lad sisteminin funksional interpretasiya aspekti eyniyyətin müəyyənləşməsində məqsədəuyğun və perspektivli olmuşdur.

Müqayisəli təhlilin məqsədi təkcə identik intonasiya formulların "vizual" uyğunluğunun tədqiqi olmamamlıdır. Melodik dönmələrin spesifikliyini nəzərdə tuturam. Ladların səssırası əsası, dayaqlı və qeyri-dayaqlı pillələrin funksional məzmunluluğunun uyğunluğu, təkcə ayrı-ayrı səslərin deyil, həm də ladintonasiya tipologiyalarının cazibə intensivliyinin bu və ya digər dərəcədə ifadə olunması da olduqca vacibdir.

Müsqayisəli təhlilin son məqsədi müqayisə olunan obyektlərin həm ümumi parametrlərini, həm də milli xüsusiyyətlərini aşkarlamaqdan ibarətdir. Bununla yanaşı, milli özünəməxsus musiqi xarakteristikaları özünü musiqi dilinin və formasının sadəcə ayrı bir detalında deyil, prioritetlərindən biri funksionallıq olan kompleksdə aşkarlayır.

Bu və ya digər materialın dayaqlı stereoəsas şəklində istifadə edilməsi imkanı bilavasitə onun təzahürünün sabitliyi, stabilliyi ilə əlaqədardır. Azərbaycan xalq musiqisinin ladintonasiya formalarının funksional vektorları belə xüsusiyyətlərə malikdirlər. Bunlardan hər biri müəyyən lada aiddir və özünün melodik təkrarlanan qrupu mövcuddur. Ü.Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" əsərinə müraciət edək [2].

**Ü.Hacıbəylinin elmi konsepsiyası metodoloji vektor kimi**

Ü.Hacıbəyli Azərbaycan xalq musiqisinin əsaslarını formalaşdırmış, Azərbaycan musiqisinin bütün spektrini birləşdirən sistem yaratmışdır. Bütün növlər və janrlar Azərbaycan xalq musiqisinin bütöv, vahid sistemində birləşmişdir. Tonika kadensiyaları səviyyəsində göstərilən Azərbaycan xalq musiqisinin funksional məzmunluğu müəyyən edilmişdir. Azərbaycan xalq musiqisinin əsaslarına temperasiyalı sistemdə baxılmasına zərurət onunla motivasiya edilirdi ki, Ü.Hacıbəyli Azərbaycan xalq musiqisinin bütün özünəməxsusluğunu, gözəlliyini kifayət qədər geniş musiqiçilər auditoriyasına çatdırmağa çalışırdı. Şifahi ənənəli professional musiqinin - muğamların, lirik şəhər mahnılarının, aşıq sənətinin özünəməxsusluğu ondan ibarətdir ki, dayaqxətli konturlar dəyişkəndir və improvizasiya prosesində qeyri-sabitdir. Ü.Hacıbəylinin əsas məqsədi sistemə strukturluq vermək, onu məlum nəzəri kateqoriyalarda modelləşdirməkdən ibarət idi. Söhbət Ü.Hacıbəylinin sistemində xüsusiyyətlərin

müəyyən kompleksi üzrə identifikasiya edilmiş, modelləşdirilmiş struktur kimi xalq musiqisindən gedir. Onun qarşısında Azərbaycan lad sistemini öz əsaslarında bütöv, vahid təqdim etmək məsələsi dururdu.

Çıxışlarının birində Ü.Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları" fundamental əsərinin işıq üzü gösməsini elan etmişdi. Bu zaman böyük mütəfəkkir qeyd etmişdir ki, əsərdə bir neçə "teorem" mövcuddur. Teorem isə - deşifrə tələb edən mənadır. Ü.Hacıbəyli bizə, öz varislərinə təkcə aksiom kimi deyil, həm də Azərbaycan etnomusiqişünaslığının potensialı kimi baxılmağı tələb edən əsər qoymuşdur. Bu mənada Ü.Hacıbəylinin "pratürk" musiqi sistemi haqqında əsərlərini yada salaq. Təsadüfi deyil ki, "Azərbaycan xalq musiqisinin əsasları" əsərində Şərq sistemi "bina" şəklində təqdim olunur. Ü.Hacıbəyli yazırdı: "Yaxın Şərq xalqlarının musiqi mədəniyyəti öz intibahına XIV yüzillikdə çatmışdır və on iki sütunlu və altı qülləli "tikili" (dəstgah) ş əklində qürurla ucalaraq hündürlüyündən dünyanın dörd tərəfinə mənzərə açılır: Əndəluzdan Çinə və Orta Asiyadan Qafqaza... 12 sütun üzərində sanki möhkəm duran musiqi "tikili"si 12 əsas muğamı, 6 qüllə isə - 6 avazatı təcəssüm etdirirdi.

12 əsas muğamlar bunlar idi: Üşşaq, Nəva, Busəlik, Rast, İraq, İsfahan, Zirafkənd, Bozurq, Zəngulə, Rəhavi, hüseyni və Hicaz. 6 avaz bunlardır: Şahnaz, Mayə, Səlmək, Novruz, Gərdaniyə, Güvəşt" [2, s.18].

Ü.Hacıbəylinin bu və ya digər postulatının arqumentasiyası, sübutu onun konsepsiyasında öz əksini tapmışdır. "Azərbaycan xalq musiqisinin əsasları"nda tonika kadensiyaları kimi irəli sürülmüş melodik formulalarda ümumiləşdirmə gücü musiqi təcrübəsinin konsentrasiyasındadır. Bu formulaları müqayisəli təhlilin "başlanğıc nöqtəsi" kimi istifadə etmək imkanı yaranır, belə ki, Ü.Hacıbəylinin yaratdığı formul kateqoriyaları, Azərbaycan xalq musiqisinin ladintonasiya fondunun rekonstruksiyalı invariantları təkcə musiqi dilinin məzmunluğunu, ifadəliliyini deşifrə etməyə deyil, həm də onları türk mentallığı çərçivəsində təfsir etməyə imkan verir.

Qeyd edək ki, müqayisəli təhlil bir neçə parametrlər üzrə uyğunluqları müşahidə etməyə imkan verir, belə ki, melodik komplekslərin identik uyğunluqları özündə eyni məzmuna malik olan ladfunksional formulları yığır. Azərbaycan musiqisinin qoynunda formalaşan musiqi dilinin sabit elementləri bizim tərəfimizdən türk musiqi dilinin səviyyəsi kimi xarakterizə edilir. Azərbaycan və türk tədqiqatçılarının əsərlərində yerinə yetirdikləri müqayisəli təhlil belə bir nəticə çıxarmağa imkan verir. Genoformula sırasının təhlili intonasiya formulalarının əhəmiyyətinin səviyyəsini, türk musiqi sistemi şəraitində onların tipikliyini müəyyənləşdirir. Bir daha qeyd edək ki, Ü.Hacıbəylinin konsepsiyasında göstərilən formullu

melodik komplekslər tonika kadensiyaları kimi türk musiqi məkanı kontekstində universal formula əhəmiyyətinə malikdirlər.

**Genoformulanın müqayisəli öyrənilmə metodologiyası**

Praktiki olaraq Azərbaycan ladlarının tonika kadensiyaları, yəni Azərbaycan musiqisinin tipoloji əhəmiyyətli formulları - genoformula strukturunun müəyyən sinfinin nümayişidir. Şübhəsiz, türk musiqi ünsürü genoformulaların bu dəsti ilə məhdudlaşmır. Bununla yanaşı, göstərilən tipologiyaların ladintonasiya məkanı türkdilli xalqların musiqisində əhəmiyyətli rol oynayır və onların heç bir şübhə olmadan qohumluğunu təsdiqləyir. Beləliklə, biz rast, şur, segah, çahargah Azərbaycan ladlarının formullarını tipologiyaların müəyyən sırasının variantı kimi şərh edirik, bunlar da bizim tərəfimizdən türkdilli xalqların musiqisinin ilkin əsası - genoformulalar kimi qəbul edilir.

Şübhəsiz, türkdilli xalqların ümumi musiqi genofondunun tədqiqini mühüm, aktual edən fakt - müqayisəli təhlilin metodologiyasının genoformula sırasının çoxşaxəliliyinə müraciət etməsidir. Məhz buna görə təklif etdiyimiz genoformulaların təhlili türk musiqi məkanı çərçivəsində bu məkanın bir hissəsi kimi formalaşmış tipoloji sistemi müəyyənləşdirməyə imkan verir. Başqa sözlə desək, biz genoformulaya müəyyən musiqi lokasiyası çərçivəsində tarixən yaranmış və öz fəaliyyətinin çox müxtəlif tərəflərini əldə etmiş invariant kimi yanaşırıq. Deyildiyi kimi, əsas olaraq biz Ü.Hacıbəylinin formalaşdırdığı Azərbaycan xalq musiqisinin ladintonasiya modellərini irəli sürürük. Bu zaman həm də qeyd edirik ki, rast, şur, segah, çahargah türk musiqisində oxşar emosional-ifadəli mənaya malikdirlər.Əlavə edək ki, kadanslı intonasiya-tipoloji modellər öz təzahürlərində Azərbaycan musiqisinin bütün janrlarında sabitdirlər.Tipologiyaların təcəssümünün məhz konstantlığı, təkrarlığı intonasiya - tipoloji modellərə türk mədəniyyətinin təkamülündə əsas klişe kimi baxılmasına imkan verir.

Tipoloji genoformula sırasının formulları Azərbaycan ladlarının semantik əhəmiyyətli tonika kadensiyalarına analojidir. Genoformula, öz növbəsində, etnofərqləndirici sıranın amillərinə aiddir, ümumi və müxtəlif isə funksionallıq vasitəsilə konkretləşir. Ü.Hacıbəyli tərəfindən formalaşaraq yaranmış tonika kadensiyaları zamanca cilalanmış melodik əhəmiyyətli vahidləri təmsil edirlər. Bu formullar istənilən kontekstdə onun "həyat fəaliyyətini" təmin edən, funksional cəhətdən mühüm, öz daxili strukturuna malikdirlər. Azərbaycan musiqisinin özünəməxsus xüsusiyyətlərini göstrmək üçün ladintonasiya parametrlərinin əhəmiyyətini qeyd edək.

Bununla yanaşı, belə sualların yaranması qanunauyğundur: Azərbaycan ladlarının tanınmış tonika kadensiyaları "musiqi məntiqinin fiqurları" kimi nə üçün və necə kristallaşdı? Bu formula funksional cazibənin hansı gücünə malikdir ki, belə effektiv tənzimləməni bacarır?

Ü.Hacıbəyli Azərbaycan xalq musiqisinin əsaslarını ladfunksional sistem, bundan əlavə, inkişaf etmiş tonal təfəkkürün məhsulu kimi müəyyənləşdirdi. Mərkəzləşmə prinsipi Ü.Hacıbəylinin elmi konsepsiyasının prioriteti oldu. Ü.Hacıbəylinin metodoloji konstantları "janrüstü" xarakter daşıyırdı, belə ki, Azərbaycan xalq musiqisinin bütün janrlarını birləşdirirdi. Ü.Hacıbəylinin formalaşdırdığı melodik formullar əsrlərlə cilalanmış "musiqi məntiqinin ladintonasiya fiqurlarıdır". Bu da qanunauyğundur, belə ki, Azərbaycan xalq musiqisinin melodik səviyyəsi formalaşdırıcı enerjiyə malikdir, Azərbaycan xalq musiqisində formanın melodik yaranması ladın funksional "həyatı" ilə şərtləndirilmişdir.

Azərbaycan ladlarında melodik funksionallıq cəzbetmənin kvintessensiyası olan melodik formulaların hərəkəti üzrə reallaşır. Müvafiq olaraq funksional "vəziyyət" xalq musiqisinin bu və ya digər nümunəsinin ümumi strukturuna yönəldir. Ü.Hacıbəylinin təlimatına əməl edərək demək olar ki, lad-tonal mərkəz Azərbaycan xalq musiqisi nümunələrində inkişafı tənzimləyir. Bu prosesdə funksionallıq implikasiya roluna malikdir, burada binarlıq prosesin mənbəyini və nəticəsini müəyyənləşdirir.

Deməliyik ki, Ü.Hacıbəylinin dahiliyi özünü təkcə Azərbaycan xalq musiqisinin ladintonasiya əsaslarının sisteminin yaradılmasında, nəhəng, mən deyərdim, saysız-hesabsız materialın ümumiləşdirilməsində göstərməyib. Bu sistem funksional şərtləndirilmiş reqlamentli ladlarda ifadə olunmuşdur.

Funksional yanaşmanın rolu musiqi türkologiyası üzrə artıq ilk əsərlərdə qeyd edilirdi. A.Həsənova yazırdı : "Müqayisəli təhlil bir neçə genetik şərtsiz tupologiya xarakteri daşıyan parametrləri göstərməyə imkan verir.

1. Çox mühüm tipoloji əhəmiyyətli xüsusiyyət - sabitliyin və qeyri-sabitliyin uyğunluğunun üst-üstə düşməsi;

2. Tetraxordların müəyyən funksional qarşılıqlığı sistemində özünü ifadə edən ladyaranmanın identikliyi;

3. Tonikanı müəyyənləşdirən tipoloji parlaq kadensiyaların, formulaların uyğunluğu. Beləliklə, söhbət əsas funksional formulanın uyğunluğundan gedir" [3].

Azərbaycan musiqisində mərkəzləşdirmə, tonikalıq bir lad sisteminin daxilində tetraxordların funksional cəzbetməsinin parlaqlığı fonunda daha çox göstərilir. Beləliklə, işlək fərziyyə olaraq təxmin edək ki, Ü.Hacıbəylinin formalaşdırdığı rast, şur, sagah, çahargah

ladlarının tipoloji modelləri türk dünyası musiqisinin həm də əhəmiyyətli markerləridir. Onda Ü.Hacıbəylinin funksional məzmuna malik ladintonasiya tipologiyaları şəklində irəli sürdüyü formul intonasiyalar türkdilli xalqların musiqi dilinin kodlaşması haqqında qoyulan məsələnin başlanğıcıdır.

"Eşitmə" qabiliyyətinin kifayət qədər tez-tez hiss etdiyi melodik, intonasiya eyniliyi asan olmasa da, bununla belə, tipoloji təhlilə məruz qalır. Burada təkcə meloritmik uyğunluğu deyil, həm də təhlilin iki çox mühüm, əhəmiyyətli tərkib hissəsini müşahidə etmək vacibdir. Birinci, melogenezin, öyrənilən tipologiyaların intonasiya "kökünün" axtarışıdır. İkinci - ladintonasiya tipologiyaların funksional məzmunluğudur.

Türkdilli xalqların musiqi mədəniyyətində genoformulaların eyniyyəti təkcə melodik formulaların funksional strukturunun uyğunluğunu, identifikasiyasını müəyyənləşdirməyə imkan vermir. Təkcə səssırası və səs yüksəkliyinin formal xüsusiyyətlərinin uyğunluğu deyil, lad dayaqlarının funksional münasibətlərinin sistemi də identikdir. Funksional- melodik intonasiyanın qohumluğu intonasiyaların sadə uyğunluğu haqqında məsələni aradan qaldırır. Söhbət tipoloji əhəmiyyətli formulalar-rəmzlərdən gedir.

Türk xalqlarının musiqisini müqayisə etmək üçün bizim seçdiyimiz və genoformula sırası kimi xarakterizə etdiyimiz ladintonasiya əsası, kulturologiya dili ilə desək musiqi mədəniyyətinin mənayaradan koordinatları sistemini nümayiş etdirir. Musiqi sənətinin millətlərarası əlaqələrinin aşkarlanması tədqiqatın bir neçə səviyyəsində aparılaraq, millətlərarası əlaqələrin proseslərini optimal göstərməyə, mənbələri açmağa və konkret nəticələr çıxarmağa imkan verir.

Bu sistemin tərkib hissələrini sadalayaq:

1.türkdilli xalqların etnomədəniyyətinin kontekst əhəmiyyəti;

2.türkdilli xalqların musiqi nümunələrinin müqayisəli təhlili;

3.türk musiqi sisteminin universal determinantlarını təmsil edən elementlərin aşkarlanması.

İrəli sürülən metodologiyaya müvafiq olaraq tədqiqatın yolu da müəyyənləşir.

1.ayrı-ayrı türk xalqlarının musiqisində genoformula sırasına baxılması;

2.janr əsasının (genoformula sırasının janr konteksti) xarakteristikası.

Genoformulanın təhlili nəticəsində hər biri məzmunlu olan tipoloji definisiyalar zənciri yaranır. İntonasiya identifikasiyasından ladfunksional tipologiyaya qədər olan müqayisəli təhlilin yolu göstərir ki, türk musiqi sisteminin "dialektüstü" xüsusiyyətlərinin (P.Desnitskayanın termini) öyrənilməsini biz təhlilin aşağıdakı zəncirindən başlayırıq:

1.konkret səssıralarının konstatasiyası;

2.intonasiya-tipoloji modellərin baxılması;

3.genoformulanın funksional identifikasiyasının öyrənilməsi.

Beləliklə, söhbət zahiri uyğunluqlar haqqında deyil, prinsipial, tipoloji qohumluqdan gedir.

Genoformula daha çox dəqiq və variantlı təkrar vasitəsilə yaranan struktur özəyin elementini nümayiş etdirir. Məhz buna görə demək olar ki, genoformula özündə hərəkətin güclü stimulunu, insan yaddaşının mənbəyini, hər şeyin əbədi silsiləli təkrarlığı ideyasını təcəssüm etdirir. Belə təkrarlıq mənbələrini bəşər mədəniyyətinin ən uzaq təbəqələrində axtarmaq olar. Silsiləvilik, son və başlanğıcın üst-üstə düşməsi xüsusi ilkin stereoəsas yaradırdı.

Deyildiyi kimi, türk dünyasının musiqisində intonasiya uyğunluqlarının konstatasiyasından sonra mühüm mərhələ ladintonasiya seqmentlərinin funksionallığının öyrənilməsidir. Yalnız belə bir analitik işdən sonra türk regionunun modelləşdirilmiş genoformulasının arqumentasiyası mümkündür. Öncə işçi ehtimal şəklində tipoloji əhəmiyyətli ladintonasiya sırası kimi, lad modelləri sırası (rast, segah, şur, çahargah ladlarının tonika kadanseyalarını nəzərdə tuturam) irəli sürülür. Müəyyən səbəblərə görə bu da məqsədəuyğundur. Birincisi, diqqəti ladfunksional səviyyədə vurğulamaq, ikincisi - kifayət qədər geniş regional miqyasda tipologiyanı açan müəyyən semantik məlumatı təklif etmək. Axı konkret mətn hədsiz dərəcədə müxtəlifdir və istənilən genoformula bu mətndə dağınıq olur. Buna görə də bizim üçün sabitlik, təkrarlıq, klişe keyfiyyətləri çox vacibdir. Məlum olduğu kimi, sonuncu invariantı, tipoloji modeli, genoformulanı formalaşdırır.

## Yekun nəticə

Beləliklə, funksional əhəmiyyətli elementlərin mürəkkəb sistemi olaraq ladintonasiya sistemi həyat qabiliyyətli modellərin folklor təcrübəsi ilə toplanması nəticəsində yaranmışdır. Bu modellər zaman keçdikcə müxtəlif tarixi dövrlərdə musiqi mədəniyyətində kristallaşmış və saxlanılmışdır. Musiqi folkloru, məlum olduğu kimi, bir tərəfdən, özündə mənşəyinin izlərini qoruyub saxlayır, digər tərəfdən, təkamül inkişafının pillələrini əks etdirir. Musiqi folklorunun çoxplanlılığı etnogenezlə sıx əlaqədardır, belə ki, müxtəlif növ təsirlərin izlərini özünə daxil edir.

Deyilənlər bunu təsdiqləməyə imkan verir ki, müqayisəli təhlil lad sisteminin təkamülünü idarə edən qanunlar haqqında, lad formulalarının yaranmasını, sabitliyini, saxlanılmasını və inkişafını tənzimləyən qanunlar haqqında mühüm məsələlərə cavab verir.

Belə ki, Azərbaycan xalq musiqisinin parlaq semantikasını və gözəlliyini özündə daşıyan formalaşmış lad modelləri öz mənşəyinin xüsusiyyətləri haqqında şahidlik edirlər.

## Ədəbiyyat

1.Алексеев, Э.А. Раннефольклорное интонирование: звуковысотный аспект/ Э.Алексеев.- Москва: Советский композитор, -1986. -240 с.

2.Гаджибейли, У.А.Основы азербайджанской народной музыки / У.Гаджибеков.- Баку: Язычы, -1985. - 146 с.

3.Гасанова, А.И. Интонационно-типологические связи азербайджанской и турецкой музыки: /Автореферат диссертации доктора философии по искусствоведению/- Баку, 2000, -23 с.

4.Гошовский, В.Л. У истоков народной музыки славян. Очерки по музыкальному славяноведению: / В.Гошовский. - Москва: Сов.композитор, -1971. - 303с.

5.Земцовский, И.И. О мелодической «формульности» в русском фольклоре. Русский фольклор: XXIV: / И.Земцовский. - Ленинград: Наука, - 1987 . – 156с.

# О МЕТОДОЛОГИИ СРАВНИТЕЛЬНОГО АНАЛИЗА В КОНТЕКСТЕ МУЗЫКАЛЬНОЙ ТЮРКОЛОГИИ

**РЕНА МАМЕДОВА (САРАБСКАЯ)**

*Член-коррес. НАНА, профессор,*
*Доктор наук по искусствоведению,*
*Зав.отделом «Взаимодействия искусств»*
*Института Архитектуры и искусства НАНА*

**Резюме**

Представленная читателю статья посвящена проблеме формульности в контексте музыки тюркоязычных народов, что является актуальной проблемой музыкальной тюркологии. Здесь отмечается роль своеобразия не только типологий ладинтонации, но и функциональное значение малогенеза. Основная цель методологии сравнительного анализа — определение как общих, так и различных черт музыки тюркского мира. Здесь важную роль играет сравнительный анализ культур, принципиально схожих на генетическом уровне. Интерес к аспекту ладинтонации возникает из-за того, что геноформулярный уровень музыкального мышления в большей степени раскрывается через интонационный анализ.Методологическим вектором служит научная концепция, отраженная У. Гаджибейли в его книге «Основы азербайджанской народной музыки». Именно эта концепция позволяет фиксировать интонационное соответствие мелодических формул. В качестве основы анализа предлагаются кадансово-интонационно-типологические модели,

семантическая значимость которых позволяет с большей целесообразностью утверждать типологическое сходство в музыке тюркоязычных народов. В результате сравнительного анализа, с одной стороны, появляется возможность выявить общие, родственные, типологически значимые черты тюркоязычных народов, а с другой стороны, выявить специфические, национальные черты характера сравниваемых культур. В статье показано, что изучение тюркского фактора, являющегося сильным компонентом этносознания, и изучение тюркских корней является методологической основой для других исследований, направленных на поиск ответов на многие фундамент

**Ключевые слова:** тюркология, формула, генoформула, лад, интонация, тип.

## ON THE METHODOLOGY OF COMPARATIVE ANALYSIS IN THE CONTEXT OF MUSICAL TURCOLOGY

**RENA MAMEDOVA (SARABSKAYA)**

*Correspondent member of ANAS,*
*Institute of Architecture and art of ANAS*
*Doctor of Arts, Professor,*
*Head of the Department of "Interrelations of Arts"*
*Institute of Architecture and Art of the ANAS*

**Abstract**

The article presented to the reader is devoted to the problem of formula in the context of the music of Turkic peoples, which is an actual problem of musical Turkology. Here, the role of idiosyncrasy is noted not only in typological ladintonation, but also in the functional significance of malogenesis. The main goal of the methodology of comparative analysis is the definition of both common and different features of the music of the Turkic world. A comparative analysis of cultures that are fundamentally similar at the genetic level plays an important role here. Interest in the aspect of ladintonation arises due to the fact that the genoformular level of musical thinking is revealed to a greater extent through intonation analysis. The methodological vector is the scientific concept reflected by U. Hajibeyli in his book "Basics of Azerbaijani folk music". It is this concept that allows you to fix the intonation correspondence of melodic formulas. Cadence-intonation-typological models are offered as the basis of the analysis, the semantic significance of which allows us to more expediently assert typological similarities in the music of the Turkic peoples. As a result of the comparative analysis, on the one hand, it becomes possible to reveal the common, related, typologically significant features of the Turkic-speaking peoples, and on the other hand, to reveal the specific, national features of the nature of the cultures being compared. The article shows that the study of the Turkic factor, which is a strong component of ethnic consciousness, and the study of Turkic roots is a methodological basis for other studies aimed at finding answers to many fundamental questions of ethnomusicology.

**Key words**: turkology, formula, genoformula, fret, intonation, type.

**Məqalənin redaksiyaya daxilolma tarixi**: 18.05.2025

**Qəbulolunma tarixi**: 05.06.2025